# YAP-ın üzvləri və Türkiyə nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər



İyunun 16-da Azərbaycanda səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, gül dəstələri düzüblər.



Partiyadan AZƏRTAC-a verilən məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Qonaqlar həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Abidənin önünə əklil və gül dəstələri qoyulub.

Türkiyə nümayəndə heyətinin rəhbəri Binəli Yıldırım "Türk şəhidliyi" abidəsinin xatirə kitabına ürək sözlərini yazıb.



Azərbaycan.- 2022.-17 iyun.- S.9.